

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 159 (23.321)

28 avqust 2019-cu il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Çin hökuməti tərəfindən muxtar respublikaya mobil elektrik stansiyaları veriləcək



Avqustun 26-da Bakı şəhərində Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti ilə Çin Xalq Respublikası Ticarət Nazirliyi arasında Naxçıvan Muxtar Respublikasına mobil elektrik stansiyalarının verilməsi haqqında müqavilə imzalanmışdır.

Müqaviləni Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev və Çin Xalq Respublikasının ölkəmizdəki səfirliyinin iqtisadi-ticari məsələlər üzrə məsləhətçisi Vanq Çunqanq imzalamışlar.

Müqavilə çərçivəsində Naxçıvan Muxtar Respublikasına dəyəri 4 milyon 969 min manat olan 2 dəst 200 kilovat gücündə dizel generator maşını, 410 dəst 2 kilovat gücündə mobil Günəş elektrik stansiyası, 410 dəst Günəş suqızdırıcısı və 6 dəst 10 kilovatlıq külək-Günəş hibrid elektrik stansiya qurğusu təmənnasız veriləcəkdir. Layihənin təchizatçısı Çinin "Hebei Maşın İdxal və İxrac şirkəti"dir. Avadanlıqlar 110 gün müddətində muxtar respublikaya çatdırılacaq, şirkətin mütəxəssisləri tərəfindən quraşdırılacaq və yerli mütəxəssislərə təlim keçiriləcəkdir.

Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov tədbirdə iştirak etmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin mətbuat xidməti***

## Seminar-müşavirə keçirilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı" 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına uyğun olaraq Kəngərli rayonunun Yurdçu kəndində rayonda fəaliyyət göstərən ailə təsərrüfatı sahiblərinin iştirakı ilə seminar-müşavirə keçirilib.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı, İqtisadiyyat nazirliklərinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin, AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun və Kəngərli Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən tədbiri giriş sözü ilə İcra Hakimiyyəti aparatının şöbə müdiri Mahir İsmayılov açaraq ailə təsərrüfatlarının inkişafına göstərilən diqqət və qayğıdan danışıb. Bildirilib ki, Kəngərli rayonunda da ailə təsərrüfatlarının inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Rayonda belə təsərrüfatlara, eləcə də aqrar sahəyə göstərilən hərtərəfli və davamlı dövlət dəstəyindən bəhrələnən ailə təsərrüfatı üzvləri kənd təsərrüfatının bütün sahələrində yaxından iştirak edirlər.

Qeyd edilib ki, 2019-cu ilin muxtar respublikamızda "Ailə təsərrüfatları ili" elan olunması dövlətin bu sahəyə göstərdiyi qayğının nəticəsidir. Bu, Kəngərli rayonunda da yeni təsərrüfatların yaradılmasına öz töhfəsini verir. Aparılan məqsədyönlü tədbirlər nəticəsində cari ildə rayonda ailə təsərrüfatlarının sayı 69-a çatıb. Keçirilən festivallarda rayonun ailə təsərrüfatları tərəfindən istehsal edilən məhsullar yüksək səviyyədə nümayiş olunur. Ötən il keçirilən "Ailə təsərrüfatı məhsulları" festivalına rayonun 42 ailə təsərrüfatı sahibinin iştirakı ilə 156 növdə 4 minə yaxın qablaşdırılmış məhsul çıxarılıb.

Tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Xaliq Abbasov, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin əməkdaşı Oqtay Məmmədov, İqtisadiyyat Nazirliyinin əməkdaşı İsa Novruzov, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin əməkdaşı Əli Şərifov və AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun əməkdaşı Loğman Bayramov çıxış ediblər.

Sonra tədbir iştirakçılarının sualları cavablandırılıb.

**Babək İSMAYILOV**

***Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi aqrar islahatlar bu gün də ölkəmizdə uğurla həyata keçirilir. Həmin islahatların davamlılığını təmin etmək məqsədilə dövlət proqramları, qanunlar qəbul olunur, aqrar sahənin inkişafına hesablanmış tədbirlər həyata keçirilir. Qeyd olunmalıdır ki, muxtar respublikanın iqlim şəraiti və əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olması diyarımızda əkinçiliyə marağı ildən-ilə artırır.***

*Dövlət proqramı necə icra olunur?*

## Qəbul edilmiş dövlət proqramları aqrar sahənin inkişafına stimul verməkdədir





Kənd təsərrüfatı məhsulları istehsalçılarına sərf etdikləri yanacaq və motor yağlarına görə yardımların verilməsi, onların lazımi texnika, mineral gübrələrlə vaxtında və güzəştli şərtlərlə təminatı, toxumçuluq və tingçiliklə məşğul olan təsərrüfatlara subsidiyaların verilməsi əkinçiliyin inkişafında yeni istiqamətlər açıb, əkin sahələrinin və məhsuldarlığın ilbəil artmasına səbəb olub.

Muxtar respublikada əhalinin ərzaq məhsullarına olan tələbatının yerli imkanlar hesabına ödənilməsi istiqamətində qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası və həyata keçirilən digər mühüm tədbirlər nəticəsində ümumi inkişaf təmin edilib, daxili bazarda məhsul bolluğu yaradılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası da muxtar respublika əhalisinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsinə və tələbatdan artıq mövsümi məhsulların ixracına geniş imkanlar açıb.

Əhalinin ərzaqla təminatı, əsasən, kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq məhsulları hesabına ödənilir. Bu isə torpaqlardan və əmək ehtiyatlarından səmərəli istifadə etməyin zəruriliyini ortaya qoyur. Həmin məsələnin əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsində rolu nəzərə alınaraq 2019-cu ilin məhsulu üçün muxtar respublikada 62 min 970 hektar sahədə əkin aparılıb. Bu da 2018-ci ilin məhsulu üçün əkilmiş sahədən 1035 hektar çoxdur.

Dövlət proqramında muxtar respublikanın iqlim şəraitinə uyğun, yüksək məhsuldarlığa malik aborigen meyvə-tərəvəz sortlarının bərpa və tətbiq olunması üçün elmi-tədqiqat işlərinin aparılması da nəzərdə tutulub. Bu istiqamətdə aparılmış tədqiqat işləri nəticəsində 372 meyvə sortunun genetik fondu toplanılıb. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Muxtar respublikada mövcud əkinəyararlı torpaq sahələrinin genişləndirilməsi və onlardan səmərəli istifadə edilməsi məqsədilə meliorasiya və irriqasiya istiqamətində də ardıcıl tədbirlər görülür.

Qeyd edək ki, istehsal olunan malların satışının təşkili də başlıca məsələlərdəndir. Ona görə də artıq bir neçə ildir ki, istehsal olunan məhsulların satışını təmin etmək üçün kənd təsərrüfatı məhsullarının satış yarmarkaları təşkil edilir. Bütün bunlar əhalinin ərzaq məhsulları ilə etibarlı təmin edilməsində həlledici rol oynayır.

Ərzaq məhsullarının satışı zamanı mövsümi problemlərin həlli və əhalinin ilboyu keyfiyyətli yerli məhsullarla təminatı məqsədilə iritutumlu soyuducu anbarlar və istixana təsərrüfatları yaradılması torpaq mülkiyyətçilərinə daha bir qayğının ifadəsi kimi dəyərləndirilir.

Meyvəçiliyin inkişafını stimullaşdırmaq məqsədilə muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində festivalların keçirilməsi meyvəçiliyə olan marağın daha da yüksəldilməsinə və meyvə istehsalının artırılmasına imkan yaradır.

Kənd təsərrüfatının iqtisadi cəhətdən səmərəli, qida və müalicəvi əhəmiyyətə malik olan, ekoloji cəhətdən faydalı təsərrüfat sahələrindən biri də arıçılıqdır. Arıçılığı inkişaf etdirmək üçün dünya miqyasında ciddi tədbirlər görülür. Təsadüfi deyil ki, bu sahənin inkişafı ilə bağlı proqramlar BMT-nin bir neçə layihəsinə daxil edilib. Muxtar respublikada arı ailələrinin artırılması, eləcə də məhsuldarlığın yüksəldilməsi üçün davamlı tədbirlər görülür. Arıçılığın inkişaf etdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilib.

Proqram yerli və ənənəvi arı cinslərinin yetişdirilməsinə, arı ailələrindən yüksək məhsul götürülməsinə, xəstəliklərə qarşı vaxtında mübarizə aparılmasına, arıçıların dövlət maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə, arıçılıq məhsullarının ixracına şərait yaradıb. Muxtar respublikamızda arıçılıqla 4250-dən çox sahibkar məşğul olur. Onlardan 706 sahibkarın 20 ailədən 250-yə qədər arı ailəsi var. Muxtar respublikada bu sahənin inkişaf etdirilməsinə böyük önəm verilməsinin ifadəsidir ki, Babək və Culfa rayonlarında balın emalı və qablaşdırılması ilə məşğul olan 2 yeni istehsal sahəsi yaradılıb. Bununla da arıçılıq məhsulları hazırlayan və balı qablaşdıran müəssisələrin sayı, ümumilikdə, 6-ya çatdırılıb.

Diyarımızda arıçı sahibkarlar daim dəstəklənir. Onlarla keçirilən maarifləndirici seminarlar, arı xəstəliklərinin müalicəsi üçün davamlı olaraq hər il dövlət tərəfindən arıçılara pulsuz dərman preparatlarının verilməsi, arıçı sahibkarların istehsal etdikləri məhsulları satmaq üçün Naxçıvan şəhərində və rayon mərkəzlərində keçirilən kənd təsərrüfatı məhsullarının satış yarmarkasına çıxarılmasına şərait yaradılması bu sahənin inkişafına göstərilən dövlət qayğısının bariz nümunəsidir.

"Arıçılıq məhsulları – bal" festivallarının keçirilməsi arıçılığa olan marağın daha da yüksəldilməsinə və arıçılıq məhsulları istehsalının artırılmasına səbəb olub.

Aqrar sahənin inkişaf istiqamətlərindən biri də ailə təsərrüfatlarının formalaşması, gələcəkdə kiçik və orta sahibkarlıq subyektlərinə çevrilməsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr tarixli və 2019-cu il 18 yanvar tarixli "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı" Tədbirlər planlarının icrası, 2019-cu ilin "Ailə təsərrüfatları ili" elan olunması mövcud potensialdan istifadə etməklə yeni ailə təsərrüfatlarının yaradılmasına, istehsalın genişlənməsinə və yeni iş yerlərinin açılmasına stimul verməkdədir.

Muxtar respublikanın kəndlərində yaradılan müasir infrastruktur, istehsal olunan məhsulların bazara sərbəst çıxarmaq imkanları və göstərilən maliyyə dəstəyi, tətbiq edilən güzəştlər və subsidiyalar bu sahəyə marağı daha da artırmaqdadır.

Ailə təsərrüfatlarının iqtisadi inkişafdakı rolu nəzərə alınaraq fəaliyyətlərinin genişləndirilməsi üçün güzəştli kreditlərin verilməsi və ailə təsərrüfatları festivallarının yüksək səviyyədə keçirilməsi onu deməyə əsas verir ki, bu gün aqrar sahə hərtərəfli və davamlı dövlət qayğısı ilə əhatə olunub.

Belə təsərrüfatların inkişafı ilə bağlı muxtar respublikanın bütün rayonlarında ailə təsərrüfatı üzvləri ilə mütəmadi olaraq maarifləndirici görüşlər keçirilərək onlara lazımi məsləhətlər verilir. Bütün bunların nəticəsidir ki, muxtar respublikada çoxsahəli ailə təsərrüfatlarının sayı artmaqda davam edir.

Aqrar sahənin inkişafı ilə bağlı tədbirlərin bundan sonra da davam etdirilməsi, ekoloji sağlam məhsulların alınması məqsədilə maarifçilik işinin aparılması, ailə təsərrüfatı başçıları, sahibkarlarla və torpaq mülkiyyətçiləri ilə müşavirələrin keçirilməsi, bu sahələrdə mütərəqqi üsulların tətbiqi davam etdiriləcəkdir.

**Zəkəriyyə GÖZƏLOV**

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin aparat rəhbəri***

*Bu gün muxtar respublikamızda ailə təsərrüfatlarının yaradılmasına, onların fəaliyyətlərinə hərtərəfli qayğı göstərilir. Daxili bazarın yerli keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsində xüsusi payı olan ailə təsərrüfatlarının inkişafi istiqamətində dövlət tərəfindən aparılan kompleks tədbirlər belə təsərrüfatların sayının artması ilə yanaşı, ailə biznesinin genişlənməsinə, kiçik və orta sahibkarlığın inkişafına da imkanlar açır.*

*“Ailə təsərrüfatları ili” – 2019*

# Ailə təsərrüfatları hərtərəfli qayğı ilə əhatə olunublar

Son illər muxtar respublikada ənənə halını alan, istehsal olunan məhsulların sərgi və satışı məqsədilə təşkil edilən “Göycə”, “Kətə”, “Arıçılıq məhsulları – bal” və “Ailə təsərrüfatı məhsulları” festivalları istehsalçılar və istehlakçılar tərəfindən yüksək dəyərləndirilib, müxtəlif kənd təsərrüfatı məhsullarının istehsalına marağı da artırıb.

Yaradılan şərait və göstərilən dövlət dəstəyi nəticəsində hazırda muxtar respublikamızda heyvandarlıq, quşçuluq, arıçılıq, bağçılıq və əkinçilik sahələri üzrə 800-dən çox ailə təsərrüfatı fəaliyyət göstərir. 2019-cu ilin muxtar respublikamızda “Ailə təsərrüfatları ili” elan edilməsi də bu sahənin inkişafına öz töhfəsini verməkdədir.

Doğma diyarımızda fəaliyyət göstərən ailə təsərrüfatçıları yaradılan şəraitdən maksimum istifadə edərək öz təsərrüfatlarını daha da genişləndirirlər. Ailə təsərrüfatçıları arasında qadınlar da fəallıq göstərirlər.

Tarixən bol meyvəli bağları, təmiz havası, saf suyu olan zəngin təbiətli Naxçıvanda becərilən meyvələr bütün Zaqafqaziyada dadı və keyfiyyəti ilə seçilib. Yerli əhali meyvələrin qurudulmasında ənənəvi üsullardan məharətlə istifadə edib, öz ehtiyaclarını ödəməklə yanaşı, əmtəəlik məhsul da hazırlayıblar.

Bu gün qədim yurd yerində meyvəqurutma sahəsində ailə təsərrüfatı ilə məşğul olan, meyvələrin qurudulmasında xalq üsullarından özünəməxsus şəkildə istifadə edən təcrübəli təsərrüfatçılar var. Onlardan biri də Culfa rayonunun Kırna kənd sakini Çiçək Bayramovadır.



Onunla həmsöhbət olarkən dedi ki, altı ildir, bu təsərrüfat növü ilə məşğulam. Əvvəllər öz bağımda yetişən meyvələri qış tədarükü kimi qurudub saxlayırdım. Bir müddət sonra bağımızda yeni meyvə ağacları əkməklə məhsul istehsalını daha da artırdım. Qış üçün nəzərdə tutduğum meyvə qurularının artıq qalanını satışa çıxarmağa başladım. Bildiyimiz kimi, muxtar respublikamızda son illər ailə təsərrüfatlarının inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Mənim də təsərrüfatımın genişlənməsində bu tədbirlərin tərkib hissəsi olan ailə təsərrüfatı məhsulları festivalları mühüm rol oynadı. İlk olaraq tut, gilənar, alma, ərik meyvələrini qurudub satırdım. Yaxşı haldır ki, bu gün təsərrüfat sahiblərinin istehsal etdikləri məhsulların satışını təşkil etmək məqsədilə yarmarkalar keçirilir, böyük marketlərin də köməyindən istifadə olunur. Mən də belə tədbirlərdə yaxından iştirak edərək ildən-ilə təsərrüfatımda məhsul istehsalını daha da artırdım.

Müsahibim qeyd etdi ki, hazırda sadaladığım məhsullardan əlavə tutdan bəkməz, tut qurusu, kəklikotu və çiyələkdən mürəbbə, kompot, bibər, kələm, alça turşusu, həmçinin alma və gilənardan çaxır və sirkə istehsal edirəm. Həmin məhsulları Naxçıvan şəhərindəki ailə təsərrüfatı məhsulları mağazasına, rayonumuzdakı ailə təsərrüfatı məhsulları üçün xüsusi guşə yaradılmış dükanlara verirəm. Alma çaxırı və sirkəsinə tələbat daha çoxdur.

Bu il yeni məhsullar istehsal etməyə başladığını deyən Çiçək Bayramova onu da bildirdi ki, təsərrüfatımızda qızlarımla birlikdə əriştə, yarma, bulqur, çörək, südlü çörək, fətir, dastana, lavaş çeşidləri, göycədən mürəbbə, lavaşa, cem, turşu və kompot hazırlayırıq.

Təsərrüfatçı onu da dedi ki, quru meyvə sahəsində bir yenilik də edib. Belə ki, ilk dəfə olaraq qovun və qarpız qurutmasını sınaqdan çıxarıb. Onlarda olarkən bu meyvələrdən də daddıq. Xüsusi üsulla qurudulan bu bostan məhsulları, həqiqətən də, dadı və tamı ilə çox ləzzətli idi.

Ailə təsərrüfatçısı ilə söhbətimiz zamanı məlum oldu ki, o, fəaliyyəti dövründə boş dayanmayıb, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Avropa İttifaqı, Azərbaycan Mikromaliyyə Assosiasiyasının təşkilatçılığı ilə keçirilən “Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi” adlı layihə çərçivəsində muxtar respublikamızda keçirilən “Öz biznesinə başla və onu inkişaf etdir” təlimlərində uğurla iştirak edib, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin diplomu ilə təltif olunub.

Müsahibimin uğurları bununla bitmir. Belə ki, 2018-ci ildə keçirilən “Ailə təsərrüfatı məhsulları”, 2019-cu ildə isə keçirilən “Kətə” festivallarında birinci yerə layiq görülüb. Bundan əlavə, o, bu il ailə təsərrüfatlarının inkişafında fərqləndiyinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 7 mart tarixli Sərəncamı ilə “Rəşadətli əməyə görə” nişanı ilə təltif olunub.

Çiçək Bayramova qeyd edir ki, muxtar respublikada əmək adamlarının rahat fəaliyyəti üçün geniş imkanlar var, ailə təsərrüfatçıları da diqqətdə saxlanılır. Belə təsərrüfatların inkişafı, bu sahəyə göstərilən dəstək bunu bir daha təsdiq edir. Abad kəndlərimiz, rahat yollarımız var. Məhsullarımızı heç bir çətinlik çəkmədən bazara çıxara bilirik, keçirilən festivallarda iştirak edirik. İstehsal olunan məhsullarımızın qablaşdırılması onlara olan tələbatı daha da artırıb. Bu da bizi həvəsləndirir, daha çox məhsul istehsal edirik. Əsas məqsədimiz ev şəraitində istehsal edilən konservləşdirilmiş meyvə-tərəvəz məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsidir. Önümüzdəki illərdə kredit götürməyi və bunun hesabına təsərrüfatımı daha da genişləndirməyi planlaşdırıram. Bizə göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdaram.

Sahibkarlara güzəştli şərtlərlə kreditlərin, müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqların verilməsi, arıçılıq avadanlıqlarının lizinq yolu ilə əhaliyə çatdırılması, subsidiyaların ödənilməsi, arıçılıq təsərrüfatlarının müxtəlif dərman preparatları ilə pulsuz təmin edilməsi muxtar respublikada ailə təsərrüfatlarının inkişafına hərtərəfli şərait yaradır. Formalaşmış iqtisadi mühitin inkişafının daha da stimullaşdırılmasında 2019-cu ilin muxtar respublikada “Ailə təsərrüfatları ili” elan olunmasının da özünəməxsus yeri vardır. Bütün bunların nəticəsidir ki, muxtar respublikada çoxsahəli ailə təsərrüfatlarının sayı artmaqda davam edir.

**Pərviz HACILI**

*İstehsal müəssisələri*

# Müştəri məmnunluğu müəssisənin başlıca hədəfidir



*“İllərdir, işimlə əlaqədar olaraq Bakı şəhərində yaşayıram. Doğma yurduma gələndə hər sahədəki inkişafı görür, çox sevinirəm. Mağazalardakı bolluq isə nəyə desən, dəyər. Xüsusilə yerli məhsullarla dolu rəfləri görəndə lap ürəyim açılır. “Gəmiqaya Qida Məhsulları” firma mağazası ata ocağımızın yaxınlığında yerləşir. Hər dəfə Naxçıvana qonaq gələndə bu mağazadan müəssisənin istehsalı olan məhsullardan alıb Bakıdakı yaxınlarıma, qonşularıma aparıram. Deyim ki, buradan aldığım qovurulmuş əriştə ev şəraitində hazırlanan əriştədən seçilmir. Şirniyyatların dadına, tamına da söz ola bilməz. Süd məhsulları da ki, lap yerinə düşür. Müəssisədə istehsal olunan pendir, qaymaq, ayran min dərdə dərmandır”.*

Bu fikirlər yaxın günlərdə təsadüfən tanış olduğum Aynurə Səfərovaya məxsusdur. Onun sözlərindən sonra müəssisə ilə yaxından maraqlanmaq qərarına gəldim və həmin ünvana üz tutdum.

Öyrəndim ki, Naxçıvan şəhərində fəaliyyət göstərən “Gəmiqaya Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətində 2003-cü ildə çörək, 2004-cü ildə makaron və peçenye, 2005-ci ildə isə süd məhsulları istehsalı sahələri yaradılıb. Bu istehsal sahələrində Almaniya, Türkiyə və İtaliya istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. Müəssisənin fəaliyyətinin genişləndirilməsi, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla istehsal gücünün artırılması, yeni istehsal sahələrinin yaradılması və əlavə işçi qüvvəsinin cəlb edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının Sahibkarlığın İnkişafı Fondundan 2008-ci ildə əlavə dövlət maliyyə dəstəyi göstərilib. Bu vəsaitlə çörək sexində istehsal gücü saatda 3000 ədəd çörək olan tam avtomatlaşdırılmış yeni xətt istifadəyə verilib. Burada 5 növ çörək unundan hazırlanan 14 çeşid çörək, lavaş istehsalı sahəsində isə saatda 4 çeşiddə üç min ədəd lavaş istehsal olunur. Onu da qeyd edək ki, müəssisədə “boradi” çörəyi də bişirilir. Bu çörək digərlərindən tərkibindəki vitaminlərə görə fərqlənir.

Daxili bazarın yüksəkkeyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasına öz töhfəsini verən müəssisədə istehsal sahələri ilbəil genişləndirilir. 2012-ci ildən burada kəpəkli çörək istehsalına başlanılıb. İnsan sağlamlığı üçün vacib elementlərlə zəngin olan kəpəkli çörək keyfiyyətli qida məhsulu kimi alıcılar tərəfindən rəğbətlə qarşılanır.

Müəssisədə istehsal olunan digər məhsullara da tələbat çoxdur. Makaron sexində istehsal edilən makaronlar müxtəlif ölçülü kisələrdə qablaşdırılır. İtaliya istehsalı olan 4 qurutma sobasından istifadə etməklə saatda 300 kiloqram makaronun istehsal edilməsi daxili bazara öz töhfəsini verir. 2011-ci ildə müəssisədə Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla Şərq şirniyyatları istehsalı sahəsi yaradılıb. Burada hazırlanan milli şirniyyat nümunələrimiz – şəkərbura, Ordubad və Şəki paxlavaları, müxtəlif çeşidlərdə qat-qat, şəkərçörək, şirin çörək, biskvit və digər unlu-qənnadı məmulatları nəfis tərtibatla bəzədilmiş taralarda satışa çıxarılır. Şirniyyat istehsalı sahəsində İran və Türkiyə istehsalı olan avadanlıqlardan istifadə edilərək saatda 200 kiloqram peçenye, 2 ton müxtəlif şirniyyat istehsal olunur.

Müəssisənin süd istehsalı sahəsində isə Hollandiya, Almaniya və Türkiyədən gətirilən avadanlıqlardan istifadə olunaraq gün ərzində 10 çeşiddən çox müxtəlif çəkilərdə 15 ton süd məhsulları istehsal olunur. İstehsal sahələrində istifadə edilən xammalın 60 faizi yerli məhsullardır. Fermer və fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən xammal şəklində alınan süd məhsulları xüsusi maşınlarla müəssisəyə daşınır, laborator analizdən keçirildikdən sonra istehsala buraxılır. Sanitar-gigiyenik qaydalara ciddi əməl olunduğu müəssisədə müasir avadanlıqlarla təchiz olunmuş iki laboratoriya fəaliyyət göstərir.

Müəssisədə bütün istehsal prosesi İSO keyfiyyətli idarəetmə sisteminin və qida təhlükəsizliyinin tələblərinə tam uyğun şəkildə təşkil olunub, işçilər gündə üç dəfə pulsuz yeməklə təmin edilirlər.

Muxtar respublikamızda həyata keçirilən iqtisadi siyasətin əsas məqsədlərindən biri də ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Bunun üçün daxili bazarın tələbatına uyğun yerli məhsul istehsal edən müəssisələrin yaradılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Məhz həmin tədbirlərin nəticəsidir ki, muxtar respublikada bazar iqtisadiyyatının tələblərinə uyğun rəqabətqabiliyyətli müəssisələrin sayı artır. Yaradılan müəssisələr bir tərəfdən ərzaq və qeyri-ərzaq məhsullarının bolluğuna, digər tərəfdən də əhalinin məşğulluğunun təmin edilməsinə xidmət edir. Bütün bunlar onu deməyə əsas verir ki, əvvəllər alıcılar xaricdə istehsal olunan ərzaq və qeyri-ərzaq məhsullarına üstünlük verirdilərsə, indi artıq muxtar respublikada istehsal olunan məhsullara daha çox maraq göstərilir.

**Ramiyyə ƏKBƏROVA**



## Yaycıda soğan yığımına başlanılıb

Son illər muxtar respublikamızda bir çox sahələrdə olduğu kimi, kənd təsərrüfatının inkişafında da uğurlar əldə edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində kənd təsərrüfatında dinamik inkişaf sürətlənir. Bazarlarımızın yerli məhsullarla təminatında irəliləyiş müşahidə olunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq olunan “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” muxtar dövlətimizdə kənd təsərrüfatının inkişafının davamlılığını təmin edir. Kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı dövlət sənədinin qəbulu həm əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, təsərrüfat adamlarının torpağa bağlılığının artırılmasına, yeni iş yerlərinin yaradılmasına, həm də əhalinin yerli məhsullarla təmin olunmasına xidmət edir.

Culfa rayonunun digər kəndlərində olduğu kimi, Yaycıda da cari ildə tərəvəzçiliyə diqqət artıb. Kəndin təsərrüfat adamları 681 hektar sahədə dənli-paxlalı, 26 hektar sahədə kartof, 18 hektar sahədə soğan, 11 hektar sahədə sarımsaq, 48 hektar sahədə isə tərəvəz əkini aparıblar. Hazırda soğan yığımı aparılır.

Sahələrə düzgün aqrotexniki qaydada qulluq göstərildiyindən bol məhsul yetişib. Əvvəllər kənardan gətirilən soğan toxumları məhsuldarlığı aşağı salırdı. Artıq bir neçə ildir ki, yerli soğan sortlarından istifadə edilir, eyni zamanda növbəli əkinə üstünlük verilir.

Bu il soğan əkilmiş sahələrin suvarılmasında heç bir çətinlik olmayıb. Əvvəlki illərdə olduğu kimi, bu il də əkin sahələrini rahat suvarmaq üçün su kanalları lildən təmizlənib, su arxları yenilənib. O cümlədən əkin sahələrini vaxtında su ilə təmin etmək məqsədilə Yaycı gölü su ilə doldurulub, “Yaycı-1”, “Yaycı-2” nasos stansiyaları saz vəziyyətə gətirilib.

Məhsul yığımı davam edir.

**Xəbərlər şöbəsi**

# Mütaliə mədəniyyətinin formalaşdırılması cəmiyyətin gələcək inkişafına xidmət edir

*Azərbaycan Respublikasının Əməkdar elm xadimi, filologiya üzrə elmlər doktoru, professor Hüseyn Həşimli ilə müsahibə*



**– Hüseyn müəllim, istərdim ki, əvvəlcə mütaliənin mahiyyəti, insan həyatında, ümumən, cəmiyyətdə yeri, əhəmiyyəti barədə söz açaq.**

– Məlumdur ki, cəmiyyətin ilkin təşəkkül çağlarından etibarən insanlar həmişə öyrənməyə, məlumatlarını genişləndirməyə, dərinləşdirməyə böyük ehtiyac duymuşlar. Bu isə, hər şeydən öncə, onların yaşam tələbatı, həyatını daha yaxşı qurmaq istəyi ilə bağlı olmuşdur. Yazının, sonralar kitab çapının kəşfi ilə bu sahədə işlər əsaslı və sistemli xarakter almışdır. İnsanlar həyatda topladıqları təcrübəni, gəldikləri qənaətləri, öyrəndikləri bilikləri, eşitdikləri əhvalatları yazıya köçürməklə, nəşr etdirməklə onların daha geniş yayılmasını, həmçinin qorunub saxlanılaraq gələcək nəsillərə çatdırılmasını etibarlı şəkildə gerçəkləşdirmək imkanı qazanmışlar. Beləliklə, yazının, kitab mədəniyyətinin yaranması bəşər tarixində mütaliəyə də müvafiq meydan açmışdır.

İnsan şəxsiyyətinin yüksək mənəvi dəyərlər əsasında formalaşmasında, kamilləşməsində müvafiq kitabları mütaliə etmək, oxuyub öyrənmək əvəzolunmaz rola malikdir. Mütaliə yolu ilə öz səviyyəsini yüksəldən, bilik dairəsini, dünyagörüşünü genişləndirən insanlar nə qədər çox olursa, bu, bütövlükdə, cəmiyyətin hərtərəfli inkişafına böyük rəvac verir. Ona görə də mütaliə yalnız fərdi xarakter daşımır, həm də çox geniş ictimai əhəmiyyətə malikdir. Qədim yunan mütəfəkkiri Sokrat yazırdı: "Mütaliə bir cəmiyyətin gündəlik vərdişinə çevrilsə, həmin cəmiyyət xoşbəxt olar". Mütaliəsiz insan, oxuyub öyrənməkdən uzaq düşən cəmiyyət əsl tərəqqidən, müasir dəyərlərdən də kənarda qalar. İyirminci əsrin məşhur amerikan ədibi Rey Bredberi bunları nəzərdə tutaraq yazırdı: "Bir mədəniyyəti yox eləmək üçün kitabları yandırmağa gərək yoxdur. Oxumağın qarşısını alın, yetər".

**– Sözsüz ki, mütaliə geniş mahiyyət daşıyır və təkcə bədii əsərlərin oxunması ilə məhdudlaşmır...**

– Ədəbi əsərləri oxumaq mütaliənin ən kütləvi, geniş yayılmış sahəsidir. İxtisasından, peşəsindən, məşğuliyyətindən asılı olmayaraq, insanlar bədii ədəbiyyata maraq göstərir, müxtəlifməzmunlu və janrlı nümunələri oxuyurlar. Bədii əsərlər oxucuların estetik zövqünü, dünyagörüşünü dolğunlaşdırır, onların mənəvi-əxlaqi təkamülündə, hərtərəfli inkişafında mühüm rol oynayır. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: ***"Hər bir bədii əsər insanlara təsir göstərir, şübhəsiz ki, müsbət təsir göstərir, onların xarakterinin formalaşmasına, inkişaf etməsinə, mədəni səviyyəsinin artmasına böyük təsir göstərir".*** Ona görə də bədii mütaliənin insan və cəmiyyət həyatında misilsiz rolu inkarolunmazdır.

Hazırkı elmi-texniki tərəqqi dövründə, qloballaşma şəraitində hər bir şəxsin həm də müxtəlif ixtisas sahələri üzrə müvafiq kitabları oxuması çox vacib məsələdir. Burada təkcə şagirdin, yaxud tələbənin fənlərə aid dərslikləri oxuması nəzərdə tutulmur. Həm də əlavə mütaliə materiallarından söhbət gedir. Məsələn, ali məktəbdə təhsil alan tələbə hər hansı fənnə aid dərslikdən ümumi, ən zəruri məlumatları əldə edə bilir. İstənilən mövzunu daha dərindən öyrənməsi üçün onun mütləq əlavə elmi mənbələrə də üz tutması lazım gəlir. Və yaxud hər hansı şəxs maraq dairəsinə uyğun olaraq müxtəlif əsərləri də mütaliə edir, siyasət, tarix, incəsənət, idman və başqa sahələrə dair kitablar, jurnallar oxuyur. Başqa bir istiqamət isə ali, yaxud orta ixtisas təhsilindən sonrakı elmi mütaliədir. Bəllidir ki, elm sürətlə inkişaf edir, hər ixtisas üzrə biliklər daha da zənginləşir. Belə olan halda cəmiyyətdə gedən tərəqqi prosesindən geri qalmamaq üçün hər bir ixtisaslı mütəxəssis öz sahəsinə uyğun yenilikləri də izləyib öyrənməyə, fəaliyyətində nəzərə almağa borcludur. Bütün bunlar mütaliənin zəruriliyindən və əhatəsinin genişliyindən soraq verir.

***– Muxtar respublikamızda əhalinin mütaliə vərdişlərinin möhkəmləndirilməsi, davamlı xarakter alması sahəsində həyata keçirilən tədbirlər barədə fikirlərinizi bilmək istərdik.***

– Özünün qədim və zəngin maarifçilik ənənələri ilə tanınan Naxçıvanda hazırkı mərhələdə mütaliəyə münasibət, bu istiqamətdə görülən sistemli, ardıcıl işlər böyük əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bütün digər sahələrlə yanaşı, elmin, təhsilin, mədəniyyətin inkişafına möhtəşəm qayğı göstərir, sistemli, fundamental maarifçilik tədbirlərini ən yüksək səviyyədə həyata keçirir. Bu istiqamətdə görülən işlər özünün heyrətamiz miqyası və konseptual mahiyyəti ilə səciyyələnir. Bəzi məqamları sadalamaq istərdim. Hazırda muxtar respublikamızda uşaqların, yeniyetmələrin, gənclərin, ümumən, əhalinin hər bir kateqoriyasının mütaliə vərdişlərinə yiyələnməsi üçün hər cür şərait yaradılmışdır. Ulu diyarımızın hər bir şəhəri, qəsəbəsi və kəndində ən müasir standartlara cavab verən kitabxanalar fəaliyyət göstərir. Onların zəngin kitab fondu vardır. Şagirdlər və digər sakinlər bu kitabxanalardan lazım olan ən müxtəlif kitabları götürüb oxuya bilirlər. Ulu öndər Heydər Əliyev kitabın, kitabxananın əhəmiyyətini yüksək dəyərləndirərək demişdir: ***"Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir".***




Bunlarla yanaşı, kitabxanaların, muzeylərin, orta, orta ixtisas və ali təhsil müəssisələrinin, AMEA Naxçıvan Bölməsinin, Naxçıvan Muxtar Respublikası Təhsil, Mədəniyyət nazirliklərinin, Gənclər Fondunun, eləcə də Yazıçılar Birliyinin və digər yaradıcılıq təşkilatlarının keçirdikləri konfranslar, simpoziumlar, kitab müzakirələri, təqdimatları, "dəyirmi masa"lar, ədəbi disputlar, "İmza günü", "Mütaliə aylığı", "Elm aylığı", "Oxu günləri", viktorinalar, intellektual yarışlar və digər tədbirlər də mahiyyət etibarı ilə kitabların tanıtdırılmasına, mütaliənin təbliğinə və genişləndirilməsinə, bu sahəyə marağın artırılmasına uğurla xidmət göstərir. Kütləvi informasiya vasitələrinin bu sahədə səmərəli fəaliyyətini qeyd etmək yerinə düşər.

Muxtar respublikamızda geniş vüsət alan "Startap Naxçıvan" hərəkatı çərçivəsində "İdeyadan başlanğıca" devizi altında həyata keçirilən çoxşaxəli tədbirlərin mahiyyətində də gənclərin elmə, kitaba bağlılığının möhkəmləndirilməsi, yaradıcılığa həvəsləndirilməsi, onların bu yöndəki fəaliyyətinin stimullaşdırılması dayanır. Aydın məsələdir ki, bu layihələrdə iştiraka hazırlaşan gənc öz təkliflərini elmi cəhətdən əsaslandırmaq üçün həm də müvafiq kitablara, mənbələrə üz tutacaq, onları diqqətlə oxuyub öyrənəcək, təhlil edəcək, bu zəmində yeni ideyalarını ortaya çıxaracaq. Göründüyü kimi, "Startap Naxçıvan" hərəkatı bütün digər mühüm aspektləri ilə yanaşı, həm də gənclərin müvafiq mütaliə vərdişlərini, ixtisas biliklərini, yaradıcı təfəkkürünü dərinləşdirmək məqsədini də izləyir. Bütün bunların hamısı muxtar respublika rəhbərinin müdrik, düşünülmüş maarifçilik siyasətinin mühüm tərkib hissələri kimi böyük əhəmiyyətə malikdir.

***– Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə "Oxunması zəruri olan kitabların Siyahısı"nın təsdiqlənməsi və bu istiqamətdə həyata keçirilən tədbirlər də mütaliə vərdişlərinin formalaşdırılması və möhkəmləndirilməsi işinə bənzərsiz töhfədir.***

– Bəli! Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı adıçəkilən sərəncam hamını mütaliəyə dəvət edən qiymətli tarixi sənəddir. Siyahıdakı kitablarda yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsi, tarixi keçmişə, milli kökə bağlılığının möhkəmləndirilməsi, siyasi dünyagörüşünün yetkinləşməsi, müstəqil dövlət quruculuğu prosesində iştiraka hazırlanması, ailədə, ictimai mühitdə davranış qaydalarına yiyələnməsi və sair kimi çox vacib vəzifələr öz ifadəsini tapmışdır. "Oxunması zəruri olan kitabların siyahısının ümummilli liderimiz Heydər Əliyevin "Yeni 2001-ci il, Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti" ilə başlaması təsadüfi deyil. Biz bu möhtəşəm müraciətdə Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun elmi və siyasi şəkildə təhlil olunub hərtərəfli şəkildə dəyərləndirilməsini görürük. Müraciət əsl vətənpərvərlik təlimidir. Siyahıda, həmçinin Azərbaycan şifahi və yazılı ədəbiyyatının, klassik pedaqoji və publisistik irsin gənc nəslin təlim-tərbiyəsində böyük əhəmiyyət daşıyan seçmə nümunələri, türk-islam dünyasının tarixi keçmişini, mənəvi-əxlaqi dəyərlərini əks etdirən materiallar, Şərq və Qərb klassiklərinin bir sıra əsərləri də yer almışdır. Sərəncamın verilməsindən ötən müddət ərzində bu siyahıya daha üç kitab – Xalq yazıçısı Elçinin "Baş" romanı, tədqiqatçı R.Mirzəzadənin "A.S.Qriboyedov: şair-diplomat" əsəri və "Pedaqoji fikir tarixindən" adlı nəşrlər də daxil edilib. Sonuncu kitabdakı materialların bilavasitə təlim-tərbiyə, maarif, mütaliə məsələlərinə həsr olunmasını söhbətimizin mövzusu baxımından məxsusi vurğulamaq istərdim.

Ümumiyyətlə, oxunması zəruri olan kitablar barədə Sərəncam hər bir vətəndaşı mütaliə vərdişlərinə yiyələnməyə, sağlam siyasi, ideoloji, mənəvi əsaslar üzrə formalaşmağa çağırmaqla təkcə bu gün üçün deyil, həm də gələcək inkişafımız üçün böyük tarixi əhəmiyyət daşıyır. Ötən müddət ərzində biz artıq onun böyük faydalarını görməkdəyik, o cümlədən yeniyetmələrin, gənclərin mütaliəyə marağının artması həmin Sərəncamın böyük əhəmiyyətinin təzahürüdür.

***– Kitab mütaliəsi və müasir internet texnologiyaları, sosial media. Bu barədə fikirləriniz...***

– Təbii ki, məlumat bolluğunun, sosial medianın, müxtəlif informasiya texnologiyaları vasitələrinin imkanlarının genişləndiyi bir şəraitdə elə olur ki, gənclik kitab mütaliəsini nisbətən arxa plana keçirir. Əlbəttə, müasir sosial-mədəni tərəqqini informasiya texnologiyaları olmadan təsəvvür etmək mümkün deyil. Bu, artıq bizim həyatımızın, məişətimizin, fəaliyyətimizin ayrılmaz tərkib hissəsinə çevrilib. Və müasir gənclik də internetdən, sosial şəbəkələrin imkanlarından istifadə edir. Bu məqamda dünyanın böyük alimlərindən olan Albert Eynşteynin sözlərini xatırlatmaq istərdim. Məşhur fizik yazırdı ki, bəşəriyyətin gələcəyi elmin, texnikanın inkişafından daha çox bu inkişafın nailiyyətlərindən hansı məqsədlə istifadə olunmasından asılıdır. Müasir mərhələdə internet texnologiyalarına yanaşmada da bu prinsip öz aktuallığını saxlayır. Əgər yeniyetmə və gənclər internetin geniş imkanlarından faydalanmaqla elmi, bədii və sair faydalı kitabları, qəzetləri, jurnalları oxuyursa və bu, onların biliyinin artmasına, dünyagörüşünün dərinləşməsinə, şəxsiyyətin sağlam prinsiplər əsasında formalaşmasına müsbət təsir göstərirsə, bunu ancaq alqışlamaq gərəkdir. Amma mənasız, gərəksiz əyləncələr ardınca qaçıb, necə deyərlər, internetdə "vaxt öldürmək" – bu, artıq zərərlidir. Ona sərf olunan zaman da, ayrılan diqqət də havayı gedir, xeyir yox, ziyan gətirir. Beləliklə, kitab mütaliəsinin öz yeri, sosial-mədəni tərəqqiyə xidmət göstərən yeni texnologiyaların da öz yeri var.

Onu da nəzərə alaq ki, uşaqlar oxuyub öyrənməyə kitabla başlayırlar, kompüterdən, internet texnologiyalarından istifadə bir qədər sonraya aiddir. Ona görə də kitab mütaliəsinin təməli də çox erkən yaşlardan qoyulur. Uşaq əlinə qələm alıb yazmağı öyrəndiyi, yenicə şəkil çəkməyə, hərfləri oxumağa başladığı ilkin mərhələdən onda kitaba, mütaliəyə sevgi oyatmaq lazımdır. Uşağın, yeniyetmənin yaşı artdıqca, mühitin dairəsi genişləndikcə, əlavə imkanlar yarandıqca kitaba, mütaliəyə maraq daha da möhkəmləndirilməlidir. Çünki insanın mənəvi kamillik yolu, hərtərəfli vətəndaş kimi formalaşması bundan çox asılıdır.

***– Böyük şairimiz Nizami Gəncəvinin zəngin həyat təcrübəsindən yoğurulmuş müdrik qənaətləri ilə fikirlərimizi yekunlaşdıraq:***

*Dünyada nə qədər kitab var belə,*
*Çalışıb əlləşib gətirdim ələ,*
*Oxudum, oxudum, sonra da vardım,*
*Hər gizli xəzinədən bir dürr çıxardım.*

***Müsahibə üçün sağ olun!***

✍ **Muxtar MƏMMƏDOV**

## Təlim keçirilib



Muxtar respublikanın gömrük orqanları tərəfindən əhalinin keyfiyyətli idxal məhsulları ilə təmin olunması, istehlakçıların hüquqlarının qorunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Son vaxtlar xarici bazarlarda saxta yollarla hazırlanmış yuyucu və təmizləyici vasitələrə, məktəbli ləvazimatlarına və digər mallara daha çox rast gəlinməsi bu cür məhsullara qarşı mübarizəni daha da aktual edir.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan Gömrük Ekspertizası İdarəsində "Saxta və keyfiyyətsiz idxal mallarına qarşı mübarizə" mövzusunda təlim keçirilib. Sözügedən təlimi Türkiyə Respublikasında fəaliyyət göstərən "Esfor" şirkətindən dəvət olunmuş mütəxəssislər aparıblar. Qeyd edək ki, saxta mallara qarşı mübarizə sahəsində 19 illik təcrübəsi olan bu şirkət dünyanın 190 firması ilə əməkdaşlıq edir.

"Esfor" şirkətinin rəhbəri Cengiz Gümüştüz qurumun iş prinsipi, yoxlamaların aparılması üçün istifadə edilən cihazlar, beynəlxalq təcrübədə saxta mallara qarşı mübarizə istiqamətində görülən işlərlə bağlı məlumat verib. Şirkətin eksperti Merve Eraslan "Procter&Gemble", "Adel" və "Faber-Castell" şirkətlərinə aid olan malların orijinal və saxta olanının ayırd edilməsi üsullarını diqqətə çatdırıb, bu sahədə təmsil etdiyi qurumun təcrübəsini bölüşüb. Təlimçilər özləri ilə bərabər gətirdikləri nümunələrin timsalında malların orijinal və ya saxta olmasını müəyyən etməyi praktik olaraq izah ediblər.

Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin əməkdaşlarının da iştirak etdiyi təlimin sonunda sertifikatlar paylanılıb.

**Rahil TAHİRLİ**
***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşı***

## Komanda-qərargah təlimi başa çatıb



"Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinə uzlaşdırma planı"na əsasən Əlahiddə Ümumqoşun Orduda üçpilləli, ikitərəfli keçirilən plana əsasən mərhələlərlə icra edilən komanda-qərargah təlimi başa çatıb. Qoşunların ən müasir vasitələrlə idarə olunmasının praktik həyata keçirildiyi təlim çərçivəsində ərazidə qərargahlar tərəfindən müdafiə və hücum əməliyyatları planlaşdırılıb. Praktik fəaliyyətlərə cəlb edilən bölmələr döyüş atışlarını icra ediblər. Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzində qoşunların fəaliyyəti kompüterlər üzərində məşq etdirilərək komandirlərin döyüşü idarəetmə bacarıqları təkmilləşdirilib. Təlimin sonunda icra edilmiş fəaliyyətlərin təhlili aparılıb, çatışmazlıqlar qeyd olunub, növbəti təlimlərə hazırlıqla bağlı tapşırıqlar dəqiqləşdirilib. Ümumilikdə, təlimdə qarşıya qoyulmuş məqsədlərə nail olunub.

**Nəriman NƏCƏFOV**



***Ümummilli liderimiz Heydər Əliyev insan sağlamlığında başlıca rol oynayan idmanın inkişafına çox böyük diqqət ayırmış və öz çıxışlarının birində bu haqda belə demişdir: “İdmanın və bədən tərbiyəsinin inkişafı üçün görülən işlər, gələcəkdə görəcəyimiz işlər dövlətin və hökumətin siyasətinin əsas istiqamətlərindən biridir”.***

# Naxçıvan həm də idman məkanına çevrilmiş yurd yeridir

Bu gün ölkəmiz digər sahələrdə olduğu kimi, idman sektorunda da böyük inkişaf dövrünü yaşayır. Azərbaycanda mükəmməl idman infrastrukturunun formalaşdırılması bunun ifadəsidir. Blokada şəraitində olmasına baxmayaraq, muxtar respublikamızda da idmanın inkişafı dövlətin prioritet məsələlərindən birinə, həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilib. Diyarımızda idmanın kütləviləşməsi, ölkədaxili və beynəlxalq turnirlərin təşkili, gənc nəslin bu sahəyə marağının artması və maddi-texniki bazanın möhkəmləndirilməsi muxtar respublika rəhbərinin ardıcıl və məqsədyönlü idman siyasətinin ifadəsidir.

O da xüsusi vurğulanmalıdır ki, idman sahəsində əldə edilən nailiyyətlər dövlətin ümumi inkişaf səviyyəsini, iqtisadi potensialını müəyyənləşdirən vacib meyarlardan biridir. Bu baxımdan Naxçıvanın dinamik inkişafı idmanda qazanılan uğurlarla bir paralellik təşkil edir. Gündən-günə artan medallar, idman obyektlərinin tikintisi, Naxçıvanın idman diyarı kimi imic formalaşdırması bu sahədəki nailiyyətlərin göstəricisidir.

Muxtar respublikada aparılan idman siyasətində bir xüsusi məqam da ondan ibarətdir ki, bu sahəyə qayğı təkcə şəhər və rayonlarla məhdudlaşmır, kəndlərdə belə, idmanın kütləviliyi təmin edilir. İxtisaslı idmançı kadrların yetişdirilməsi diqqətdə saxlanılır. Hazırda Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanla məşğul olanların ümumi sayı 40 mindən çoxdur ki, bunun da yarıdan çoxunu gənclər təşkil edir.

Qədim idman ənənələrinə malik olan Naxçıvanda dövlət bədən tərbiyəsi və idman qurumlarının yaradılması ötən əsrin sonlarına təsadüf edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1994-cü il 30 dekabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi yaradılıb. Gələcək nəslin sağlam böyüməsinin, bədən tərbiyəsi və idman sahəsində kütləviliyə nail olunmasının zəruriliyini nəzərə alaraq və fəaliyyətini yaxşı qurması üçün 2 fevral 2010-cu il tarixdə nazirliyin yeni binasının açılışı olub.

2002-ci il fevralın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yanında keçirilən bədən tərbiyəsi və idman sahəsinə dair ilk müşavirədə muxtar respublikada idmanın inkişafına nail olmaq üçün görülən işlər, qarşıda duran vəzifələr müzakirə olunub. Ali Məclisin Sədri cənab Vasif Talıbov idmanın müxtəlif növləri üzrə federasiyaların yaradılmasını tövsiyə edib. Qısa zaman kəsiyində 12 idman federasiyası yaradılıb. Bir qədər sonra daha 3 federasiyanın fəaliyyəti təmin edilib. Rayonlarda süni örtüklü meydançaların, şahmat məktəblərinin, idman zallarının tikintisi və ya yenidən qurulması davam etdirilib. 2002-ci ildə Naxçıvan şəhərində, 2009-cu ildə isə Şərur rayonunda Olimpiya İdman komplekslərinin açılışı olub.

Muxtar respublikanın rayonlarında müasir standartlara cavab verən infrastrukturun yaradılması bölgələrdə yeniyetmə və gənclərin bu sahəyə marağının artması ilə nəticələnib. Belə ki, 2003-cü ildə Sədərək rayonunda açıq idman kompleksi, 2005-ci ildə rayon stadionu, 2009-cu ildə mini-futbol və voleybol meydançaları, Uşaq-gənclər şahmat məktəbi, 2008-ci ildə Kəngərli rayonunda mini-futbol, süni örtüklü meydançalar, 2015-ci ildə şahmat məktəbi, 2018-ci ildə rayon mərkəzi stadionu, 2007-ci ildə Babək rayonunda süni örtüklü meydança, 2008-ci ildə açıq idman kompleksi, 2013-cü ildə Uşaq-gənclər şahmat məktəbi tikilərək istifadəyə verilib. Culfa rayonunda isə 2001-ci ildə Uşaq-gənclər idman, 2006-cı ildə Uşaq-gənclər şahmat məktəbləri, mərkəzi stadion inşa olunub. Ordubad rayonunda 2009-cu ildə süni örtüklü mini-futbol stadionu, 2011-ci ildə Uşaq-gənclər şahmat məktəbi, Şahbuz rayonunda 2006-cı ildə Uşaq-gənclər şahmat məktəbi, 2007-ci ildə rayon mərkəzi stadionu uşaq, yeniyetmə və gənclərin ixtiyarına verilib. Bu illər ərzində Şərur və Culfa rayonlarının müxtəlif kəndlərində yeni stadionlar tikilib. 2007-ci ildə isə Ali Məclisin Sədri tərəfindən Naxçıvan Şahmat Mərkəzinin təməli qoyulub, 2009-cu ildə ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə mərkəzin açılışı olub.

Bütün bunlar göstərir ki, muxtar respublika rəhbəri başqa sahələrlə yanaşı, bədən tərbiyəsi və idman sahəsini də daim diqqətdə saxlayır. Naxçıvanın bir sıra dünya və Avropa çempionatlarına, beynəlxalq turnirlərə ev sahibliyi etməsi də diyarımızda həyata keçirilən uğurlu idman siyasətinin nəticəsidir.

Hazırda muxtar respublikada idmanın inkişaf konsepsiyasına uyğun olaraq uşaq, yeniyetmə və gənclərin sağlamlığının yaxşılaşdırılması müasir dövrün tələblərinə uyğun fəaliyyətin təşkilidir. Bu sahədə əsas istiqamət isə şagirdlərin sağlam həyat tərzini formalaşdırmaq, onların fiziki inkişafını təkmilləşdirmək və şəxsiyyət kimi yetişdirməkdir. Bu gün Naxçıvanda fəaliyyət göstərən tam orta məktəblərin, demək olar ki, hər birində müasir tələblərə cavab verən idman zalları var. Yeni tikilən məktəblərin ərazisində şagirdlərin fiziki hazırlıq dərsləri keçməsi üçün açıq idman qurğuları salınıb, bəzi məktəblərin ətrafında isə süni örtüklü mini-futbol meydançaları tikilib.









Fiziki tərbiyənin məqsədi sağlamlıq vəziyyətindən asılı olmayaraq, hər kəsin idmana maraq dairəsinin genişləndirilməsi, idman və gənclər təşkilatlarının, cəmiyyətlərin şəbəkəsini yaratmaq, kütləviliyə nail olmaqdır.

İdman insanda müsbət əxlaqi keyfiyyətləri tərbiyə və inkişaf etdirir. Bu, ölkəmizin işğala məruz qaldığı bir vaxtda onun müdafiə qüdrətinin güclənməsi ilə də birbaşa bağlıdır.

Muxtar respublikamızda idman siyasətinin düzgün qurulduğunu bu sahədə qazanılmış uğurlu nəticələr təsdiqləyir. Diyarımızda beynəlxalq səviyyəli yarışlar təşkil olunur, idmançılarımız hər il müxtəlif idman növləri üzrə keçirilən Avropa və dünya çempionatlarından, beynəlxalq turnirlərdən Vətənə medallarla qayıdırlar. 2019-cu ilin ilk yeddi ayında idmançılarımız ölkə birinciliklərində 130, beynəlxalq turnirlərdə 102, dünya çempionatında 2, Avropa çempionatında 1 medal olmaqla, 235 medal qazanıblar.

Bununla yanaşı, uşaq və gənclərin idmana cəlbi istiqamətində də əsaslı işlər görülməkdədir. Hazırda muxtar respublikada idmanla 27 mindən çox uşaq və gənc məşğul olur. Onların 21 min 397-si oğlan, 6002-si isə qızdır. Sağlamlıq imkanları məhdud olan uşaq və gənclərdən də 361-i idmanla məşğul olur. Bədən tərbiyəsi və idmanla məşğul olmaq təkcə yarışlarda iştirak etmək və yüksək nailiyyət əldə etmək məqsədi daşımır, eyni zamanda zərərli vərdişlərin qarşısının alınmasında, əhali sağlamlığının təmin olunmasında mühüm əhəmiyyət kəsb edir.

Bunu da vurğulayaq ki, artıq beynəlxalq idman yarışlarının muxtar respublikamızda təşkili də ənənə halını alıb. Belə ki, ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan Beynəlxalq Şahmat festivallarının, futbol üzrə “Heydər Əliyev kuboku” uğrunda turnirin, Azərbaycan kubokunun final oyununun, müxtəlif beynəlxalq turnirlərin, usta ağır atletlər arasında dünya çempionatının, voleybol üzrə Azərbaycan birinciliyinin və digər yarışların Naxçıvanda keçirilməsi idmana göstərilən diqqətin bariz nümunəsidir.

Təbii ki, bu turnirlərin keçirilməsində Naxçıvanda təhlükəsizliyin, sabitliyin tam təmin olunması da mühüm rol oynayır. Naxçıvana gələn idmançılara xüsusi diqqətlə yanaşılır. Onlar buradan yüksək təəssüratlarla ayrılırlar. Naxçıvan bu beynəlxalq turnirlər vasitəsilə özünün tarixini, mədəniyyətini və turizm potensialını da nümayiş etdirir. Bu da onu təsdiqləyir ki, qədim diyarımız artıq beynəlxalq idman yarışlarının keçirildiyi bir məkan kimi tanınır.

Ötən il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında” müşavirə keçirilib. Ali Məclisin Sədri cənab Vasif Talıbov müşavirədə aidiyyəti üzrə tapşırıqlar verərək deyib ki, Gənclər və İdman Nazirliyi və idman federasiyaları muxtar respublikada idman növlərinin inkişaf etdirilməsi, gənclərin idmana cəlbi, idman yarışlarının kütləviliyinin artırılması sahəsində fəaliyyətlərini gücləndirməli, idmanın müxtəlif növləri üzrə muxtar respublika birinciliklərinin keçirilməsi davam etdirilməlidir. Keçirilən idman yarışları, xüsusən də ölkə və beynəlxalq səviyyəli yarışlar gənc idmançıların təcrübəsinin artırılmasında mühüm rol oynayır. Azərbaycanın iştirak etdiyi beynəlxalq yarışlarda muxtar respublika idmançılarının da iştirakı təmin edilməlidir. Müşavirədə mövcud stadionlardan səmərəli istifadə, eyni zamanda yerlərdə stadionların yenidən qurulması işinin davam etdirilməsi şəhər və rayon İcra hakimiyyətləri ilə Gənclər və İdman Nazirliyinə tapşırılıb.

Muxtar respublikada yaradılan idman infrastrukturunun, o cümlədən idman obyekt və qurğularının qorunması və onlardan səmərəli istifadə Gənclər və İdman, Təhsil nazirliklərinə, idman federasiyalarına, şəhər və rayon İcra hakimiyyətlərinə tapşırılıb.

Eyni zamanda Ali Məclisin Sədri işində nöqsanlara yol verən idman federasiyalarına qarşıdakı dövrdə öz fəaliyyətlərində dönüş yaratmaları, idmanın kütləviliyini təmin etmək üçün təbliğat mexanizmini düzgün qurmaları və digər məsələlər barədə tapşırıqlar verib.

Müşavirədən sonra gənclərin idmana cəlbi istiqamətində ardıcıl tədbirlər görülüb, muxtar respublikada sağlam gənc nəslin yetişməsi, onların zərərli vərdişlərdən uzaq durması, idman yarışları və spartakiadaların müvafiq idman federasiyaları ilə birlikdə təşkili diqqətdə saxlanılıb. Xüsusilə Şahmat, Futbol, Paralimpiya, Atıcılıq federasiyalarında struktur dəyişikliyi özünü qabarıq şəkildə büruzə verməkdədir. Şahmatçılarımızın son 9 ayda əldə etdikləri nailiyyətlər, federasiya rəhbərliyinin mütəmadi olaraq rayonlarda məşqçi-müəllimlər və zəka sahibləri ilə görüşləri bu idman növünə qayğı ilə yanaşıldığının əyani sübutudur. Cari ildən etibarən muxtar respublikada artıq uşaq yaş qrupları üzrə də çempionat təşkil olunacaq. Belə ki, Futbol Federasiyasında struktur dəyişikliyindən sonra tədbirlər planında yer alan əsas məsələlərdən biri də budur. Uşaq futbolunun inkişafı, kütləvi hal alması üçün artıq federasiya ölkə Futbol Federasiyası ilə birgə layihələr hazırlayıb. Eyni zamanda məşqçi və hakimlərin muxtar respublikada yetişdirilməsi üçün kurslar, seminarlar təşkil olunur.

İdmanla peşəkar səviyyədə məşğul olan insanların əksəriyyətinin gənclər olduğunu nəzərə alsaq, o zaman bunu deyə bilərik: idmana qayğı, idmanın kütləviliyinin təmin olunması həm də gənclərin inkişaf etdirilməsi sahəsində görülən işdir. Muxtar respublika rəhbərinin qayğısı ilə bu istiqamətdə həyata keçirilən belə tədbirlər bir daha onu deməyə əsas verir ki, Naxçıvanda idmanın inkişafı gələcək illərdə də yüksək səviyyədə təmin olunacaq.

***Ulu öndərin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasət strategiyası bu gün Naxçıvanda muxtar respublika rəhbəri tərəfindən inamla davam etdirilir. Gənclərin sağlam fərd kimi formalaşmasına çalışan Ali Məclisin Sədri cənab Vasif Talıbov idmanın inkişafı sahəsində kompleks tədbirlərin həyata keçirilməsini daim diqqətdə saxlayır, bu sahənin imicinin formalaşmasına çalışır. Bütün bunlar isə gənc nəslin sağlam ruhda tərbiyəsinə, respublikamızda idmanın kütləviləşməsinə xidmət edir. Nailiyyətlərsə göz qabağındadır.***

**✍ Ceyhun MƏMMƏDOV**

***Bu yazı “Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü” mövzusunda yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür.***

***İtmişdir***

Hüseynov Hikmət Neymət oğlunun adına 3 iyun 2015-ci il tarixdə verilmiş 056964 nömrəli müharibə veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Pərviz Hacılı**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1495. Sifariş № 575**